TURKPA
PARLIAMENTARY ASSEMBLY OF TURKIC-SPEAKING COUNTRIES

Hüquq məsələləri və beynəlxalq əlaqələr komissiyası

Hesabat məruzəsi

COM/LAIR/REP/002/FINAL

**Yeddinci iclas**
**Astana, 1 mart 2019**

# "TÜRKPA ÜZV ÖLKƏLƏRİNDƏ ALİ TƏHSİL SAHƏSİNDƏ EKVİVALENTLİK PROSESLƏRİNƏ DAİR PROBLEMLƏR"

## I. GİRİŞ

Dayanıqlı iqtisadi və sosial inkişafda ali təhsilin rolu ilbəil artmaqdadır. Ali təhsilə biliyin və onun tətbiqinin mərkəzi nöqtəsi, innovasiya və yüksək bacarıqları təşviq etməklə iqtisadi artım və inkişafa böyük töhfə verən qurum kimi baxıla bilər. Müasir universitetlərin missiyalarından biri böyük çətinliklərə həllər tapmaq, qlobal prioritet sahələrdə araşdırmalar aparmaq, səhiyyə və sosial öhdəliklər kimi sosial nəticələrə töhfə verməkdir. Bilik ali təhsilin həqiqi bazasıdır: araşdırmalar vasitəsilə onun istehsalı, öyrətməklə ötürülməsi, tələbələr tərəfindən əldə olunması və istifadəsidir.

Ali təhsildə beynəlxalqlaşdırma yeni deyildir. Universitetlərin milli müəssisə olduğuna baxmayaraq onlar ən beynəlxalq qurumlar kimi tanınır. Digər tərəfdən, qloballaşma sərhədlərin və milli sistemlərin yox olma tendensiyasını özündə ehtiva edir. Təhsilin beynəlxalqlaşdırılması qlobal çağırış və tətbiqlərə cavab verən bilik, bacarıq və dəyərlərin ötürülməsini nəzərdə tutur. Ali təhsilin qloballaşdırılması beynəlxalqlaşdırmanın bir hissəsi kimi görünə bilər. Qloballaşma ali təhsilin beynəlxalq və çoxmədəniyyətli dünyagörüşünü tətbiq etmək üçün məqsədyönlü fəaliyyətə çevrilməsini nəzərdə tutur.

Sərhəddənkənar təhsil ali təhsilin qloballaşmasının ən yaxşı göz önündə olan nümunəsidir. O milli sərhədlərdən kənarda tələbələrin, müəllimlərin və proqramların hərəkətliliyini ehtiva edir. Sərhəddənkənar təhsilin ən vacib tərkib hissələrindən biri tələbələrin xarici ölkələrə hərəkətidir. Son illərdə, xarici və transmilli təhsilin yüksək qiymətləndirilməsi ilə təhsilin beynəlxalqlaşdırılması mühüm əhəmiyyət kəsb etməkdədir.

Tel:+99412 5635835 | Fax:+99412 5635834 | info@turk-pa.org | www.turk-pa.org | /turkpaorg /TURK_PA
Address: 106, S.S Akhundov str., microdistrict 7, AZ1116, Binagadi / Baku / Azerbaijan

Türkdilli Ölkələrin Parlament Assambleyasının (TÜRKPA) üzv ölkələri həm keyfiyyət, həm də kəmiyyət aspektləri baxımından yaxşı inkişaf etmiş və qabaqcıl ali təhsil sistemlərinə malikdir. Digər tərəfdən, təhsilin qloballaşması və beynəlxalqlaşması universitet təhsili almaq məqsədilə bir ölkədən digərinə hərəkət edən TÜRKPA üzv ölkələrindən olan tələbələrin sayının artmasına gətirib çıxarmışdır. Bu fenomen xarici ölkələrdə əldə edilmiş ixtisasların tanınması məsələsini gündəmə gətirmişdir. Hər üzv ölkənin özünəməxsus və unikal sistemi olduğunu nəzərə alaraq bu hesabat məruzəsi TÜRKPA üzv ölkələrinin ali təhsil sistemləri və ekvivalentlik proseslərinin əsas xüsusiyyətlərinin təqdim edilməsi məqsədi daşıyır. Bu yolla bənzərliklər və fərqliliklər irəli sürülərək tərəflər bir-birinin təcrübəsini öyrənmək və öz sistemlərində ən yaxşı təcrübənin tətbiqinin qəbulu kimi imkanlar əldə edəcəkdir.

Aşağıdakı bölmə milli parlamentlər vasitəsilə müvafiq hökumət orqanlarından əldə olunmuş TÜRKPA üzv ölkələrinin ali təhsil sistemləri və ekvivalentlik prosesləri ilə bağlı məlumatı özündə əks etdirir.

## I. TÜRKPA ÜZV ÖLKƏLƏRİNDƏ ALİ TƏHSİL SİSTEMLƏRİ VƏ EKVİVALENTLİK PROSESLƏRİ

### AZƏRBAYCAN

Azərbaycanda 51 (40 dövlət, 11 özəl) ali təhsil müəssisəsi fəaliyyət göstərir. 2018-2019-cu təhsil ilində təhsilin dörd - azərbaycan, rus, ingilis və türk dillərində həyata keçirildiyi ali təhsil müəssisələrində bakalavr dərəcəsində 157,662, magist dərəcəsində 13,422 (AMEA müəssisələri yanında 131 daxil olmaqla) tələbə olmaqla, 171,104 tələbə siyahıya daxil olmuşdur.

2005-ci ildə rəsmi olaraq Bolonya Prosesinə qoşulmaqla, eləcə də 2009-cu ildə *"Təhsil haqqında Azərbaycan Respublikası Qanununun"* qəbulu ilə ali təhsil sisteminin məzmunu əhəmiyyətli dərəcədə yenilənmiş, Avropa Kredit Transfer Sisteminin həyata keçirilməsi və ali təhsil heyət təliminin üç mərhələsinə (bakalavr, magistratura və doktorantura) başlanmışdır. Azərbaycan Prezidenti tərəfindən 2013-cü ildə təsdiq edilmiş "Azərbaycan Respublikasında Təhsilin İnkişafı üçün Dövlət Strategiyası" müasir texnologiyalara əsaslanmış yüksək səviyyəli infrastruktura malik olan, dünyada aparıcı təhsil sistemi formalaşdırmaq məqsədi daşıyır. Bu konsepsiya hər fərd üçün bərabər və keyfiyyətli təhsil imkanlarının yaradılması, o cümlədən, təhsil sisteminin bütün mərhələ və səviyyələrinin məzmunu və institutional çərçivəsinin inkişaf etdirilməsini müəyyən etmişdir.

Azərbaycan Avropa Ali Təhsil Sahəsinin bərabər üzvünə çevrilmiş və ali təhsil müəssisələrinin fəaliyyətləri bütövlüklə Bolonya Prosesinin tələblərinə uyğunlaşdırılmışdır. Avropa Kredit Transfer Sisteminin həyata keçirilməsi, Avropa və dünyanın aparıcı universitetlərinin təcrübələrinin səmərəli istifadəsi forma və məzmun

baxımından təhsil prosesinin inkişafı üçün şərait yaratmışdır. Yüksək ixtisaslaşmış heyətin hazırlanması, tələbə qəbulu qaydalarının təkmilləşdirilməsi, universitetlərdə keyfiyyətin idarə olunması mərkəzlərinin yaradılması, məzunlara xidmət göstərən karyera mərkəzlərinin səmərəliliyinin artırılması və elmi fəaliyyətlərin səmərəliliyinin yüksəldilməsi sahəsində yeni yanaşmaların və metodologiyaların tətbiqində əhəmiyyətli uğurlar qazanılmışdır.

Təhsilli, bacarıqlı və təlim keçmiş mütəxəssislər prinsipinə əsaslanaraq SABAH layihəsi ilk dəfə olaraq yeni məzmun və öyrətmə texnologiyaları əsasında başlamışdır. Hazırda, SABAH qrupları 12 ali təhsil müəssisəsində fəaliyyət göstərməklə 39 universiteti və 2300-dən çox tələbəni əhatə edir. Aparıcı Avropa universitetləri ilə birgə həyata keçirilən ikili diplom proqramları ali təhsilin məzmununun təkmilləşdirilməsi və ali təhsil müəssisələrinin beynəlxalq nüfuzunun yüksəldilməsində mühüm rol oynamışdır.

Prezident İlham Əliyevin müvafiq sərəncamı ilə təsdiq edilmiş "2007-2015-ci illərdə Azərbaycan gənclərinin xaricdə təhsili üzrə Dövlət Proqramı" təhsil sahəsində ən mühüm hadisələrdən biri kimi qiymətləndirilə bilər. Bu uğurlu proqram çərçivəsində 3558 azərbaycanlı gənc bakalavr, magistratura və doktorantura səviyyələrində dünyanın ən nüfuzlu universitetlərində təhsil almaq imkanı qazanmışdır. Bu gənclərin böyük əksəriyyəti artıq təhsilini başa vuraraq geri qayıtmış və ölkənin gələcək inkişafına töhfə verməyə başlamışdır.

Ali təhsilə verilən önəmin digər bir bariz nümunəsi və bu istiqamətdə görülən işlərin davamı kimi, 26 noyabr, 2018-ci il tarixli Prezident sərəncamı ilə təsdiq edilmiş "2019-2023-cü illər üçün Azərbaycan Respublikasında ali təhsil sisteminin beynəlxalq rəqabətliliyinin artırılması üzrə Dövlət Proqramı" müasir dövrün tələblərinə uyğun olaraq qarşıya yeni vəzifələr qoyur.

Təhsil sahəsində məqsədyönlü dövlət siyasətinin nəticəsi kimi, Azərbaycanda təhsil alan xarici tələbələrin sayı durmadan artmaqdadır. 2017-2018-ci təhsil ilində 76 ölkədən olan 5871 xarici Azərbaycanda ali təhsil almışdır. Bu əvvəlki illə müqayisədə 17% artım deməkdir. Azərbaycan Respublikası xarici ali təhsil ixtisaslarının tanınması və onların ekvivalentliyinin müəyyənləşdirilməsi üzrə bir sıra beynəlxalq konvensiyalara qoşulmuşdur. Xarici ali təhsil ixtisaslarının tanınması və ekvivalentliyinin müəyyən edilməsi *(nostrifikasiya)* proseduru "Avropa regionunda ali təhsil ixtisaslarının tanınması" haqqında Lissabon Konvensiyasının müddəalarına uyğun olaraq hazırlanmış və Azərbaycan Respublikası Nazirlər Kabinetinin 13 may, 2003-cü il tarixli və № 64 saylı Qərarı ilə təsdiqlənmiş "Xarici dövlətlərin ali təhsil sahəsində ixtisaslarının tanınması və ekvivalentliyinin müəyyən edilməsi (nostrifikasiyası) Qaydaları"na əsasən həyata keçirilir.

Azərbaycan Respublikası, həmçinin Türkiyə, Qazaxıstan və Qırğızıstanı da əhatə edən Asiya və Sakit Okean dövlətlərində tədris kurslarının, ali təhsil haqqında diplomların

və elmi dərəcələrin tanınması barədə Regional Konvensiyaya tərəfdaşdır və xarici ali təhsilin ekvivalentliyinin müəyyən edilməsi üçün prosedurun həyata keçirilməsində Konvensiyanın müddəalarına istinad edir.

Türkiyə, Qazaxıstan və Qırğızıstanın ali təhsil müəssisələrindən məzun olaraq 2018-ci ildə xarici ali təhsil ixtisaslarının tanınması və ekvivalentliyinin müəyyən edilməsi (nostrifikasiya) üçün Azərbaycan Respublikası Təhsil Nazirliyinə müraciət edənlərin sayı müvafiq olaraq 528, 55 və 11 nəfər təşkil etmişdir. Azərbaycan Respublikası ilə Türkiyə, Qazaxıstan, Qırğızıstan arasında əsas problemli məsələlər və müvafiq tövsiyələr aşağıdakı qaydada qruplaşdırıla bilər. Türkiyə Respublikasının ali təhsil müəssisələrinin məzunlarının xarici ali təhsil ixtisaslarının tanınması və ekvivalentliyi ilə bağlı ümumi vəziyyətin qənaətbəxş olduğunu nəzərə alaraq, qeyd etmək lazımdır ki, hazırda distant təhsil alan vətəndaşların sayı artmaqdadır. Bununla bağlı olaraq, vurğulamaq yerinə düşərdi ki, Azərbaycan Respublikası ərazisində distant təhsilin təşkili və qiymətləndirilməsi qanunvericilikdə təmin olunmamışdır. Yuxarıda qeyd olunanları nəzərə alaraq, bu müraciətçilərin ixtisaslarının tanınması və ekvivalentliyinin müəyyən edilməsi (nostrifikasiya) mümkün deyildir.

## QAZAXISTAN

Qazaxıstanda 131 ali təhsil müəssissəsi vardır. Onalardan 10-u milli, 31-i dövlət, 14-ü qeyri-mülki, 1-i səhmdar cəmiyyətləri birliyinin, 1- i beynəlxalq, 18 – i səhmdar cəmiyyətlərin, 56-ı isə özəldir. Bu müəssisələrdə 500.000-dən çox tələbə ali təhsil alır və təhsilini davam etdirir və tələbələrin 38.000-dən çoxu müəllimlik üzrə təhsil alır.

Ali təhsilə keçidin təmin edilməsi məqsədilə 2016-cı ildən Birləşdirilmiş Milli Test və Kompleks Təcrübə reintroduksiyası, eləcə də ilk akademik ilin sonuna qədər ödənişli əsaslarla bal əldə edə bilməyən şəxslərin şərti razılığına dair nizamnamə hazırlanmışdır. Bu da Qazaxıstan Ali təhsil müəssisələrinə 30.000-dən artıq gəncin qəbul edilməsinə imkan yaradır.

2019-cu ildə namizədlərə yardım edəcək bir çox yeniliklər mövcuddur. 2019-cu ildən Birləşdirilmiş Milli Testlər ildə 4 dəfə, Yanvar, Mart, İyun-İyul, Avqust aylarında keçirilir və tələbələr müəyyən ödəniş etməklə Universitetə qəbul ola bilər.

Xarici ali təhsil müəssisələrindən Qazaxıstan ali təhsil müəssisələrinə tələbələrin köçürülməsində kompleks testlər üçün zəruri tələblər 2018-ci ildə aradan qaldırılmışdır. Universitetə daxil olmaq üçün xarici ölkələrdən qəbul imtahanlarının nəticələrini istifadə etmək mümkündür. Nəticədə Birləşdirilmiş Milli Test və Kompleks Təcrübə reintroduksiyası olmadan təxminən 22 min xarici gənc Qazaxıstan universitetlərinə qəbul olmuşdur.

Tanınma və nostrifikasiya prosesində xarici təşkilatlar tərəfindən verilən təhsil sertifikatları, Qazaxıstan Respublikasının məcburi təhsil standartlarına bərabər tutulur. Tanınma və nostrifikasiya proseduru aşağıdakı normativ aktlarla tənzimlənir:

- Qazaxıstan Respublikası Təhsil və Elm Nazirinin "Təhsilə dair tanınma və nostrifikasiya qaydalarının təsdiqlənməsi haqqında" 10 yanvar 2008-ci il, 8№-li qərarı;

- Qazaxıstan Respublikası Təhsil və Elm Nazirinin "Dövlət xidmətinin standartlarının təsdiqlənməsi. Təhsilə dair sənədlərin tanınması və nostrifikasiyası haqqında" 16 aprel 2015-ci il 212 №li qərarı;

- Qazaxıstan Respublikası Təhsil və Elm Nazirinin "Dövlət xidmətinin standartlarının təsdiqlənməsi. Təhsilə dair sənədlərin tanınması və nostrifikasiyası haqqında" 13 avqust 2015-ci il 528 №li qərarı;

Dövlət xidməti təminatçısının ekvivalentlik prosesində "Təhsil sənədlərinin tanınması və nostrifikasiyası" şöbəsi Bolonya prosesi və akademik mobilizasiya mərkəzidir.

## QIRĞIZISTAN

Qırğızıstanda 63 universitet fəaliyyət göstərir. Onlardan 32-i dövlət, 31-i isə özəldir. Universitetlərdə təhsil alan tələbələrin ümumi sayı 162.200-dür. Onların 16%-i dövlət büdcəsi hesabına, 84%-i müqavilə ilə təhsil alır. Universitelərdə müəllim heyətini 10.812 nəfər təşkil edir ki, onlardan 3225 nəfəri elmlər doktorluğuna namizədlər, 748-i elmlər doktoru, 2147 nəfəri dosent, 596-ı isə professorlardır. Büdcə və ödənişli əsaslarla Universitetlərə qəbul planı hər il Qırğızıstan Respublikasının Hökuməti tərəfindən təsdiq edilir. 2018-2019-cu akademik illər üçün universitetlərdə 5705 ödənişli yerlər ayrılmışdır. Ümumilikdə 2018-ci ildə ixtisaslar üçün 582 ödənişli yerlər ayrılmışdır (ümumi ödənişlərin 10%-i)

2017-ci ilin sonundan başlayaraq Nazirlik proqramlar vasitəsilə Qırğızıstan universitetlərinin reytinqini müəyyənləşdirilməsinin üzərində çalışır. 2018-ci ildə ilk dəfə olaraq, müstəqil akreditasiya və reytinq agentliyi obyektivlik, şəffaflıq, etibarlılıq prinsiplərinə uyğun olaraq hazırlanmış metodologiyaya əsaslanan rəqəmsal sıralama texnologiyasından istifadə edərək, təhsil proqramlarının (ixtisasları) və universitetin müəllim heyətinin sıralamasını təyin etdi.

Metodologiyanın obyektivliyi universitet tərəfindən daxil olan məlumatları nəzərə alaraq, tədqiq edilən səviyyələrə uyğun olan beş meyar əsasında göstəricilərin yekunları ilə müəyyən edilir.

2018-ci ildə Qırğızıstan Universitetlərinin müstəqil reytinqi, keyfiyyətli milli təhsil mədəniyyətini dəstəkləmək və təbliğ etmək məqsədi daşıyan milli təhsilin rəqabət

qabiliyyətinin yaxşılaşdırılması və təhsil xidmətlərinin potensialının artırılmasına yönələn reytinq və qiymətləndirmə üzrə effektiv mexanizm olmuşdur.

Təhsil haqqında Qanunun 40-cı maddəsinə əsasən, tədris xidmətlərinin keyfiyyətini təsdiq etmək məqsədilə təhsil müəssisələri bir təşkilat və  proqram əsasında akreditə olunur. Bu mərhələdə universitetlər bu akreditasiya nəticələrinə əsasən məzunlara təhsil sertifikatları vermək hüququna malikdirlər. 2017-2018-ci illərdə akreditasiya agentlikləri tərəfindən verilən məlumatlara əsasən, 29 ali məktəbdə 167 ali peşə təhsil proqramı, 33 təhsil müəssisəsində (ali məktəb, kollec) 143 orta peşə təhsili proqramı üzrə, 15 peşə məktəbində 97 əsas peşə təhsil proqramı üçün akreditasiyalar həyata keçirilmişdir.

Qırğızıstan Respublikası Hökumətinin 3 fevral 2004-cü il tarixli 53 nömrəli qərarı ilə təsdiq edilmiş "Orta, ali, əlavə və ali peşə təhsili sənədləri haqqında Əsasnamə" yə uyğun olaraq, digər ölkələrin ali və orta ixtisas təhsil müəssisələri tərəfindən verilən təhsil sənədləri Qırğızıstan Respublikasında tanınmış təhsil müəssisəsinin tanınması və ya akreditasiyası haqqında müvafiq beynəlxalq müqavilələr və ya razılaşmalar əsasında qüvvəyə minir.

Tanınma üzrə beynəlxalq razılaşmalar olmadığı təqdirdə, Qırğızıstan Respublikasının Təhsil və Elm Nazirliyi müəyyən xarici ölkələrin təhsil sənədlərini peşə təhsil səviyyəsinə uyğunlaşdırmaq üçün fərdi qaydada araşdırır və onların tanınması haqqında şəhadətnamə verilir. Qırğızıstan Respublikası Təhsil və Elm Nazirliyinin 1 fevral 2005-ci il tarixli 45/1 saylı Sərəncamı ilə təsdiq edilmiş xarici təhsil müəssisələrinin təhsil sənədlərinin səviyyəsini və məzmununu təsdiq edən sənədlərin verilməsi barədə Təlimata əsasən təhsil səviyyəsi beynəlxalq müqavilələr və razılaşmalar olmadıqda təhsil dövrü ilə müəyyən edilir.

Qırğız Respublikasının 04.07.2017-ci il tarixli 421 saylı Qərarına əsasən, ekvivalentlik sertifikatı almaq üçün aşağıdakı sənədlər təqdim edilməlidir: vətəndaşın ərizəsi; təhsil sənədinin əsli və surəti; təlim sənədinin forma və müddəti, məlumatların qiymətləndirilməsi sistemi, akademik fənlər siyahısı, siniflərin ümumi sayı və müstəqil saat (kredit) haqqında məlumatı əks etdirən təhsil sənədinə əlavə və sənədin surəti; təhsil sənədinin qırğız və ya rus dilində notarial qaydada tərcüməsi; imtahan üçün verilmiş sənədlərin surətləri; ərizəçinin təhsilinin və ya peşə fəaliyyətinin davam etdirildiyi təhsil müəssisəsinin, təşkilatın tələbi; ərizəçinin şəxsiyyət vəsiqəsi.

Qırğızıstanın təhsil sənədlərinin tanınması üzrə hökumətlərarası sazişləri olan dövlətlərin təhsil müəssisələri tərəfindən verilmiş təhsil sənədlərinin yoxlanılması iki iş günü ərzində həyata keçirilir. Qırğızıstanın təhsil sənədlərinin tanınması ilə bağlı hökumətlərarası müqavilələrə malik olmayan dövlətlərin təhsil müəssisələri tərəfindən verilmiş təhsil sənədlərinin tədqiqi bir ay müddətində həyata keçirilir. Xarici təhsil müəssisələri tərəfindən verilən təhsil sənədlərinin səviyyəsinin müəyyənləşdirilməsi ilə

bağlı mübahisəli məsələlər olduqda Təhsil Nazirliyi təhsilin dövrü və məzmununu təsdiq edən əlavə sənədlərin təqdim edilməsini tələb etmək hüququna malikdir.

24 noyabr 1998-ci il tarixli "Təhsil sənədlərinin, akademik dərəcələrin və başlıqların qarşılıqlı tanınması və bərabərliyi" haqqında Sazişə uyğun olaraq 1999-cu il oktyabrın 1-dən sonra Belarus Respublikasında, Qazaxıstan Respublikası, Rusiya Federasiyasında və Tacikistan Respublikasında çıxarılan təhsil sənədləri nostrifikasiya qaydası olmadan tanınırlar.

Lakin tərəflərdən təhsilə dair sənədlərin nümunələrini, habelə təhsil sənədlərinin qeydiyyatı və verilməsi qaydalarını, xarici təhsil sənədlərinin tanınması proseduru haqqında məlumatları və təhsil sənədlərinin tanınması üçün səlahiyyətli orqanlar haqqında məlumatları tənzimləyən normativ hüquqi aktları almaq daha münasib olardı.

## TÜRKİYƏ

Türkiyədə Ali Təhsil Şurası, 06 noyabr 1981-ci il tarixli 2547 saylı Qanunla qurulmuşdur. Bu qanuna əsasən, Türkiyədəki bütün ali təhsil müəssisələri Ali Təhsil Şurasının tabeçiliyindədir və yəni ATŞ ali təhsildən məsul olan qurumdur. Ali Təhsil Şurası əsasən ali təhsildə strateji planlaşdırma, universitetlər arasında əlaqələndirmə məsələlərinə yönəlib və ən əsası, keyfiyyətin təminatı mexanizmlərindən məsuldur.

Türkiyədə 129 dövlət universiteti, 72 özəl və 5 özəl peşə liseyi vardır. Ümumilikdə 7.5 mln. tələbə bu ali təhsil müəssisələrində təhsil alır. Onların 125.000-i beynəlxalq tələbə kimi qeydiyyatdan keçmişdir. Akademik heyət baxımından bu müəssisələrdə 158.000 müəllim heyəti vardır.

2001-ci ildə Türkiyə Bolonya prosesinin üzvü oldu. Bolonya prosesi tərəfindən müəyyənləşdirilən məqsədlər ali təhsilin qloballaşdırılması sahəsində Türkiyə üçün əlverişli mexanizmlər yaratdı.

Türkiyədə Tanınma və Akreditasiya prosesi 1983-cü ildə Ali Təhsil Şurasının (YÖK) YÖK qərarı ilə yaradılan "Bərabərlik Vahidi" tərəfindən həyata keçirilməyə başladı. 2017-ci ildə sözügedən vahid "Tanınma və bərabərlik xidmətləri şöbəsinə" çevrildi. Türkiyədə akreditasiya prosesi Avropa regionunda ali təhsilə dair sənədlərin tanınması haqqında Konvensiya (Lissabon Konvensiyası - 11/04/1997), 2547 saylı Ali Təhsil Qanununun 7 / p maddəsi, Ali Təhsilin Tanınması və Akreditasiyası haqqında Əsasnamə Xaricdən qəbul olunmuş diplom (05/12/2017), Ali Təhsil və Peşə icraatı ilə əlaqədar qanunvericilik və ikitərəfli və çoxtərəfli Ali Təhsil haqqında müqavilələrə uyğun olaraq həyata keçirilir.

Ekvivalentlik prosesinin qiymətləndirilməsində ilk şərt, ali təhsil müəssisəsinin tanınmasıdır. Ali təhsil müəssisəsi, ali təhsil sistemində akademik dərəcə vermək

səlahiyyətinə malik bir qurum kimi, fəaliyyət göstərdiyi ölkənin səlahiyyətli orqanları tərəfindən tanınmalıdır.

Tanınmış xarici ali təhsil müəssisələrindən alınmış diplomların saxta olmadığı və diplomun əlaqəli şəxsə məxsus olub olmadığı xarici nümayəndəliklər, yəni diplomatik nümayəndəliklər vasitəsilə təsdiq edilir. Təsdiq prosesinin nəticəsi olaraq, əlaqəli şəxs tərəfindən məzun olduğu ali təhsil proqramının minimum müddət, kredit və nailiyyətlər baxımından Türkiyə ali təhsil sistemində proqram və dərəcələrə bərabər olub olmadığını müəyyənləşdirmək üçün tədqiqatlar aparılır.

Türkiyədəki ali təhsil müəssisələrində çalışan akademiklərdən ibarət komissiyaların qiymətləndirilməsi və zərurət yarandıqda universitetlərdən alınan fikirlərə uyğun olaraq formal təhsilin tələb olunan müddətinə və lisenziya proqramının akademik və peşəkar nailiyyətləri, təhsil dili, keyfiyyəti, nəzəri və praktiki kursları, staj və layihələr baxımından Türk ali təhsil sistemində dərəcələr və proqramlar üçün uyğun olan sahələr üzrə təhsil almış şəxslərə ekvivalentlik verilir.

Tanınmamış ali təhsil müəssisələrinin məzunları və ya distant təhsil kimi məcburi davamiyyətə malik olmayan proqramların məzunlarının, minimum vaxt, təhsil, kredit və müvəffəqiyyətlər baxımından Türk təhsil sisteminə uyğun olmayan diplomların tanınması ilə bağlı müraciətləri qəbul edilmir.

Ekvivalentlik tələblərinə cavab verən diplom proqramına aid akademik və peşəkar bacarıqlar baxımından çatışmazlıqlar olduğu halda, müraciət edən şəxsə əldə etdiyi bilik və bacarığı sınamaq və ya nailiyyətləri tamamlamaq, eləcə də işin peşəkar icrasını tələb edən sahələrə uyğunlaşma məqsədilə “Səviyyə və İxtisasın Müəyyən Edilməsi Sistemi' kimi bir neçə müraciətlərin edilməsi imkanı yaradılır. Bu müraciətlər Səviyyənin Təsnifat İmtahanı, Kursun Tamamlanması, Strukturlaşdırılmış Klinik İmtahanlar, Elmi Şəxsiyyətin Müəyyənləşdirilməsi, Layihələndirmə, Klinik Təcrübə, Staj və Kursun Tamamlanması kimi müracitələrdən ibarətdir.

Ekvivalentlik prosesinin mühüm mərhələlərindən biri diplomların və təhsilin məzmununun düzgünlüyünün yoxlanılması və xarici ölkələrin ali təhsil müəssisələrindən nümayəndəliklər vasitəsilə alınan məlumatlar əsasında həyata keçirilən "təsdiq prosesi"dir. Alınan diplomların düzgünlüyü və ali təhsilin keyfiyyət və kəmiyyət xüsusiyyətləri təsdiq prosesinin tərkib hissəsidir. Daxil olan cavablar ekvivalentlik tətbiqinin nəticəsini müəyyənləşdirməkdə mühüm rol oynayır. Cavabların məzmununa görə, müvafiq komissiyaların və universitetlərin ekvivalentlik, imtina və ya imtahan kimi fikirlərinə uyğun olaraq, müraciət edən şəxslər üçün müxtəlif təcrübə imkanları yaradılır.

Bu səbəblə təsdiq edildikdə, tələbələrin təhsil növünün formal və ya distant təhsil olduğu, hər ikisi birlikdə əks olunmuş ali təhsil proqramlarında, ümumi təhsil dövrü və ali təhsil diplomunun seriya nömrəsini əhatə edən bu təhsil növlərinin faiz bölgüsünə

dair məlumatların mövcudluğuna xüsusi diqqət yetirilir. Bir universitetdən digərinə köçürülməsindən sonra məzun olanlar haqqında məlumatlar məzunların ali təhsilə başlamış və məzun olduqları universitetlər haqqında məlumatları özündə əks etdirməlidir.

Türkiyənin ali təhsilə dair qanunvericiliyinə əsasən formal təhsildə dərs və praktiki tədqiqatlara qatılmaq tələb olunur, bu halda xarici ölkədə qalma müddəti də nəzərə alınır. Müvafiq ölkələrdə formal təhsil proqramlarından məzun olan şəxslərin ekvivalentlik müraciətləri, formal təhsilin tələb etdiyi davamiyyətə uyğun gəlmədikdə, qəbul edilmir. Bu səbəbdən ali təhsil müəssisələri və tələbələrin dərsə davamiyyətə diqqət yetirilməsi vacibdir.

Hər il Azərbaycan, Qazaxıstan və Qırğızıstanın ali təhsil müəssisələrinin minlərlə məzunu Türkiyəyə akkreditasiya ilə bağlı müraciət edir. İllik ekvivalentlik ərizələrinin sayına görə Azərbaycan digər ölkələr arasında ən yüksək rəqəmə malikdir. Türkiyə TÜRKPA üzvləri arasında yalnız Azərbaycanla ali təhsil sahəsində anlaşma memorandumu imzalamışdır.

2018 Ali təhsil müəssisələrinin imtahan təlimatına Qırğız-Türk Manas Universiteti (Qırğızıstan), Türk–Qazax Hoca Ahmet Yesevi Universiteti (Qazaxıstan), Odlar Yurdu Universiteti, Naxçıvan Dövlət Universiteti, Bakı Dövlət Universiteti, Bakı Slavyan Universiteti, Azərbaycan Dillər Universiteti, Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universiteti, Azərbaycan Dövlət Pedaqoji Universiteti, Azərbaycan Memarlıq və İnşaat Universiteti, Sumqayıt Dövlət Universiteti, Azərbaycan Tibb Universiteti(Azərbaycan) kimi ali təhsil müəssisələri uyğundur.

YKS Guide (ali təhsil müəssisələrinin imtahan təlimatı) və digər Azərbaycan, Qazaxıstan və Qırğızıstanda universitetlərin məzunlarının müraciətlərinin sayı təxminən beş min təşkil edir. Türkiyə universitetlərinə qeydə alınmış Azərbaycan, Qazaxıstan və Qırğızıstanın vətəndaşları da nəzərə alındıqda, Türk Dünyası ölkələrində yüksək səviyyədə tələbə mobilizasiyası və ekvivalentlik müraciətləri çox sayda müşahidə olunur.

## III. NƏTİCƏ

Ali təhsil, biliyin artırılması üçün əlverişli bir mexanizmdir. Bu, innovasiyanı təşviq etmək və yüksək bacarıqların artırılması yolu ilə iqtisadi artım və inkişafa böyük töhfə verən bir institutdur. Ali təhsil, təhsilin beynəlxalqləşdirilməsi və qloballaşma prosesinin təsiri ilə getdikcə beynəlxalq və çoxmədəniyyətli dünyagörüşü özündə əks etdirən fəaliyyətə çevrilməklə, tələbə, müəllim və proqramlar arasında milli sərhədlər üzərindən mobilizasiyanı təmin edir. Türkdilli Ölkələrin Parlament Assambleyasının (TÜRKPA) üzvü olan ölkələr keyfiyyət və kəmiyyət baxımından yaxşı inkişaf etmiş və qabaqcıl ali təhsil sistemlərinə malikdir. Digər tərəfdən, qloballaşma və təhsilin

beynəlxalqləşdirilməsi TÜRKPA bir üzv ölkəsindən digərinə təhsil almaq məqsədilə müraciət edən tələbələrin sayının artmasına səbəb olmuşdur. Bu fenomen xarici ölkələrdə alınan təhsil üzrə ixtisasların tanınması məsələsini ön plana çıxarmışdır.

TÜRKPA üzv ölkələrində ali təhsil sistemlərinin və ekvivalentlik proseslərinin əsas xüsusiyyətləri TÜRKPA üzv ölkələri xüsusilə də ekvivalentlik prosesi ilə əlaqədar ali təhsil sahəsində əməkdaşlıq baxımından böyük potensiala malik olduqlarını ifadə edir. Hüquqi və institusional çərçivənin gücləndirilməsi, təcrübə mübadiləsi, qabaqcıl təcrübələrin tətbiq edilməsi və məlumat axınını asanlaşdırılması ilə, hər bir TÜRKPA üzvü olan ölkə ümumiyyətlə, ali təhsilin, xüsusilə də dörd ölkə arasında ekvivalentlik proseslərinin inkişafına böyük töhfə verə bilər.